*Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası Rəyasət Heyətinin "26" dekabr 2025-ci il tarixli Qərarı ilə təsdiq edilmişdir.*

***Sədr ______________ M.Musayev***

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər)
Təşkilatları Milli Konfederasiyasının
**Tikinti Komissiyasının**

# ƏSASNAMƏSİ

## Maddə 1. Ümumi müddəalar

1.1. Bu Əsasnamə Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının (bundan sonra "Konfederasiya") daxilində Tikinti Komissiyasının (bundan sonra "Komissiya") təşkili və fəaliyyətinin hüquqi əsaslarını müəyyən edir.

1.2. Komissiya, Konfederasiya Nizamnaməsinin 5.11-ci bəndinin müddəaları əsasında yaradılır.

1.3. Komissiya, Konfederasiyanın Nizamnaməsində müəyyən olunmuş vəzifələrin icrası prosesində qarşıya çıxan sahəvi məsələləri (problemləri, təklifləri, planları, layihələri və sair) müvafiq sahədə ixtisaslaşmış mütəxəssislərin, ekspertlərin və sahibkarlıq subyektləri nümayəndələrinin araşdırmasına təqdim etmək, onların rəyi və konkret təklifləri əsasında müvafiq məsələlərin çevik və səmərəli həlli üsullarını müəyyənləşdirmək məqsədilə təşkil edilir.

1.4. Komissiya hüquqi şəxs deyildir. O, öz fəaliyyətini Konfederasiyanın Rəyasət Heyətinin rəhbərliyi, himayəçinin (Himayəçilər Şurasının) müşahidəsi altında həyata keçirir.

1.5. Komissiya ictimai əsaslarla, daimi fəaliyyət göstərir.

1.6. Komissiya öz fəaliyyətində Azərbaycan Respublikasının qüvvədə olan hüquqi aktlarını, Konfederasiyanın Nizamnaməsini, bu Əsasnaməni, Konfederasiyanın Qurultayı, İdarə Heyəti və Rəyasət Heyətinin qərarlarını, habelə Azərbaycan Respublikasının rəqabət qanunvericiliyi ilə müəyyən edilmiş rəqabət siyasətinin prinsiplərini rəhbər tutur.

1.7. Əsasnamə, Rəyasət Heyəti tərəfindən təsdiq olunduğu tarixdən hüquqi qüvvəyə minir.

1.8. Əsasnamənin Azərbaycan Respublikasının qüvvədə olan hüquqi aktları və Konfederasiyanın Nizamnaməsi ilə ziddiyyət təşkil edən müddəalarının hüquqi qüvvəsi yoxdur.

## Maddə 2. Komissiyanın fəaliyyət istiqamətləri

2.1. Komissiya öz fəaliyyətini aşağıdakı istiqamətlərdə həyata keçirir:

2.1.1. ölkənin tikinti və şəhərsalma sektorunda iqtisadi vəziyyətin təhlili, bu sahədə mövcud problemlərin araşdırılması və səbəblərinin müəyyənləşdirilməsi, onların həlli istiqamətində təkliflər və planlar hazırlanması;

2.1.2. tikinti və şəhərsalma sahəsində qabaqcıl beynəlxalq təcrübə, elmi-texniki nailiyyətlər və innovasiyaların tədqiqi, onların ölkəmizdə tətbiqi imkanları və şərtlərinin müəyyən edilməsi ilə bağlı təkliflər və planlar hazırlanması;

2.1.3. tikinti və şəhərsalma sektorunda sağlam rəqabət mühitinin formalaşdırılması və inkişafına dair təkliflər və planlar hazırlanması;

2.1.4. tikinti və şəhərsalma sektorunun tənzimlənməsi və davamlı inkişafı ilə bağlı yeni dövlət standartları, strategiyaları, proqramları, planları, inkişaf konsepsiyaları, tikinti qayda və normaları, lisenziya və icazə prosedurları, sair sənəd layihələrinin, habelə mövcud normativ sənədlərə dəyişikliklər və əlavələri ehtiva edən yeni təkliflərin işlənib hazırlanması;

2.1.5. tikinti, quraşdırma və memarlıq sahəsində təhsil və kadr hazırlığı, habelə elmi-texniki proqramların təkmilləşdirilməsi barədə təkliflər hazırlanması;

2.1.6. tikinti, quraşdırma və memarlıq sahələrində fəaliyyət göstərən Konfederasiya üzvlərinin ehtiyaclarının müəyyənləşdirilməsi və həlli üçün təkliflər hazırlanması;

2.1.7. tikilməkdə və istismarda olan bina və qurğularda qəza vəziyyəti yarandığı hallarda aidiyyəti dövlət qurumunun müraciəti əsasında araşdırma aparılması və rəy verilməsi;

2.1.8. Konfederasiyaya rəy verilməsi üçün daxil olan, tikinti və şəhərsalma sektoruna aid normativ sənəd layihələrinin iqtisadi və texniki aspektlərinin təhlili və rəy verilməsi;

2.1.9. Konfederasiyanın prezidentinin, vitse-prezidentlərinin, digər komissiyalarının, bölgə (rayon) şuralarının, habelə Komissiyanın himayəçisinin (Himayəçilər Şurası üzvünün) tikinti sektoru ilə bağlı sorğularının cavablandırılması.

## Maddə 3. Komissiyanın vəzifələri

3.1. Komissiya aşağıda sadalanan vəzifələri yerinə yetirir:

3.1.1. öz fəaliyyətini bu Əsasnamə ilə müəyyən edilmiş istiqamətlərə uyğun təşkil etmək;

3.1.2. Əsasnamədə nəzərdə tutulan funksiyalarını icra etmək üçün öz iclaslarının gündəliyini müəyyənləşdirmək və iclaslar keçirmək;

3.1.3. icraatına təqdim edilən sənədləri və verilən tapşırıqları qəbul etmək və ya qəbulundan imtina edilməsi barədə əsaslandırılmış qərar çıxarmaq;

3.1.4. icraatına qəbul edilmiş sənədlər və tapşırıqlar əsasında çevik, təfərrüatlı və obyektiv araşdırmalar həyata keçirmək;

3.1.5. hər bir sənəd və tapşırıq üzrə aparılmış araşdırmanın yekun nəticəsini arayış, rəy və (ya) təklif verməklə, yaxud akt, hesabat və ya başqa növ sənəd hazırlamaqla sənədləşdirmək;

3.1.6. Komissiya adından tərtib olunan sənədlərin vaxtlı-vaxtında və peşəkar formada işlənib hazırlanmasını təmin etmək;

3.1.7. fəaliyyətini qiymətləndirmək və səmərəliliyini artırmaq üçün zəruri daxili qayda və prosedurlarını müəyyənləşdirmək;

3.1.8. bu Əsasnamənin müddəalarından irəli gələn, habelə Konfederasiyanın Rəyasət Heyəti tərəfindən Komissiyaya onun fəaliyyət istiqamətləri çərçivəsində həvalə edilən digər vəzifələri yerinə yetirmək.

## Maddə 4. Komissiyanın hüquqları

4.1. Komissiyanın aşağıda sadalanan hüquqları vardır:

4.1.1. öz dövri iş planını və daxili prosedur qaydalarını (reqlamentini) bu Əsasnaməyə uyğun hazırlayıb təsdiq etmək;

4.1.2. ayrı-ayrı sahələrdə ixtisaslaşmış mütəxəssislər və ekspertlərin, habelə təcrübəli iş adamlarının Komissiyanın fəaliyyətinə cəlb edilməsi üçün Konfederasiyanın prezidentinə təqdimat vermək;

4.1.3. öz daxilində üzvlərdən və cəlb olunmuş mütəxəssislər, ekspertlər və təcrübəli iş adamlarından ibarət müvəqqəti, yaxud daimi işçi qrupları təşkil etmək;

4.1.4. işçi qruplarının tərkibi, vəzifələri, hüquqları, iş planları və daxili prosedur qaydalarını (reqlamentini), habelə onların gündəliyinə təklif olunan məsələlərin siyahısını, eləcə də dövri hesabatlarını təsdiq etmək;

4.1.5. icraatına qəbul edilmiş sənədlər və tapşırıqlar, o cümlədən gündəliyə və (ya) iş planına daxil edilmiş məsələlərin araşdırılması və müvafiq nəticə sənədlərinin hazırlanmasını müvafiq işçi qruplarına həvalə etmək;

4.1.6. idarə, müəssisə və təşkilatlardan məlumat alınması məqsədilə onlara müraciət edilməsi, respondentlər arasında sorğular keçirilməsi, ekspert rəyi və (ya) mütəxəssis izahı alınması, habelə laboratoriya analizi təyin edilməsinə zərurət yarandığı hallarda, Konfederasiyanın prezidentinə bu barədə vəsatət vermək;

4.1.7. vəzifələrinin icrası əsnasında sahəvi məsələlər barədə rəy və ya arayış alınmasına zərurət yarandığı halda, Konfederasiyanın aidiyyəti komissiyalarına müraciət etmək;

4.1.8. ayrı-ayrı məsələləri Konfederasiyanın digər komissiyası (komissiyaları) ilə birlikdə müzakirə etməyə zərurət yarandıqda, həmin komissiya ilə (komissiyalarla) müştərək iclaslar təşkil etmək, onlarla qarışıq tərkibdə işçi qrupları yaratmaq;

4.1.9. vəzifələrinin icrası əsnasında texniki, təşkilati və informasiya dəstəyi tələb olunduqda, Konfederasiyanın Direktorluğuna müraciət etmək;

4.1.10. vəzifələrinin icrasına səhlənkar və (ya) intizamsız münasibət göstərən üzv barədə şifahi və ya yazılı xəbərdarlıq formasında intizam tənbehi tətbiq etmək;

4.1.11. Komissiyanın məlumat bazasını və arxivini formalaşdırmaq.

**Maddə 5. Komissiyanın tərkibi**

5.1. Komissiyanın tərkibi Konfederasiyaya üzv olan sahibkarlıq subyektlərinin nümayəndələrindən təşkil olunur. Üzvlük hüquqları dayandırılmış (dondurulmuş) üzvlər tərəfindən namizəd (namizədlər) irəli sürülə bilməz.

5.2. Komissiyanın üzvlüyünə namizədlər Komissiyanın fəaliyyət istiqamətlərinə aid sahələrdə azı 3 (üç) illik iş təcrübəsinə malik olmalıdırlar.

5.3. Komissiyanın tərkibinə namizədlər Konfederasiya üzvlərinin elektron və ya kağız daşıyıcıda olan yazılı müraciəti əsasında onların işçiləri arasından müəyyən edilir. Konfederasiyanın üzvü olan fərdi sahibkarlar öz namizədliyini irəli sürə bilərlər.

5.4. Namizədlərin sənədlərinin yoxlanılması, onların müvafiq tələblərə uyğunluğunun müəyyən edilməsi və qeydiyyatı Konfederasiyanın Direktorluğu tərəfindən həyata keçirilir.

5.5. Komissiyanın tərkibinə Konfederasiya üzvünün yalnız bir namizədi seçilə bilər.

5.6. Komissiyanın tərkibinə mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərindən bərabər sayda, yaxud sahibkarlıq subyektlərinin kateqoriyaları arasında mümkün qədər balanslaşdırılmış nisbətdə üzvlər seçilir.

5.7. Komissiyanın tərkibi Konfederasiya prezidentinin təqdimatı əsasında Rəyasət Heyəti tərəfindən 1 (bir) il müddətinə seçilir.

5.8. Komissiyadan çıxan şəxsin yerinə yeni namizədin, habelə Komissiya tərkibinin genişləndirilməsi məqsədilə əlavə namizədin qəbulu Konfederasiya prezidentinin təqdimatı əsasında Rəyasət Heyətinin qərarı ilə həyata keçirilir. Bu hallarda yeni üzvün səlahiyyət müddəti Komissiyanın fəaliyyətdə olan üzvlərinin səlahiyyət müddətinin qalan hissəsi ilə məhdudlaşır.

5.9. Komissiya üzvünün (sədrinin, müavininin) səlahiyyətlərinə aşağıdakı hallarda vaxtından əvvəl xitam verilir:

5.9.1. Konfederasiyanın Rəyasət Heyətinə 1 (bir) ay qabaqcadan ərizə ünvanlamaqla vəzifəsindən istefa verdikdə;

5.9.2. əmək qabiliyyətini 3 (üç) aydan artıq müddətə itirdikdə, yaxud vəfat etdikdə;

5.9.3. təmsil etdiyi sahibkarlıq subyekti ilə olan əmək müqaviləsinə xitam verildikdə;

5.9.4. təmsil etdiyi sahibkarlıq subyektindən onun səlahiyyətlərinə xitam verilməsi barədə yazılı müraciət daxil olduqda;

5.9.5. təmsil etdiyi sahibkarlıq subyekti öz sahibkarlıq fəaliyyətini dayandırdıqda, müflis elan edildikdə, yaxud hüquqi şəxs olan sahibkarlıq subyekti ləğv olunduqda;

5.9.6. Komissiyanın 3 (üç) ardıcıl iclasında hər hansı səbəbdən iştirak etməyib səbəbi barədə Komissiyaya məlumat vermədikdə, yaxud verdiyi məlumatların üzrlü hesab olunmaması barədə Komissiya tərəfindən qərar çıxarıldıqda;

5.9.7. Komissiyanın fəaliyyətinə mane olması, yaxud vəzifələrinin icrasına səhlənkar və (ya) intizamsız münasibəti barədə Komissiya tərəfindən müvafiq akt qəbul edildikdə;

5.9.8. fərdi sahibkar qismində Komissiyaya qəbul edilmiş şəxsin sahibkarlıq fəaliyyəti dayandırıldıqda, yaxud onun vergi uçotuna xitam verildikdə.

5.10. Bu Əsasnamənin 5.9-cu maddəsində nəzərdə tutulan məlumatlar və (ya) sənədlər Konfederasiyanın Direktorluğuna bilavasitə, yaxud Komissiyada təmsil olunan müvafiq sahibkarlıq subyekti vasitəsilə 5 (beş) iş günü ərzində təqdim olunmalıdır.

5.11. Komissiya üzvünün səlahiyyətlərinə Konfederasiya prezidentinin təqdimatı əsasında Rəyasət Heyətinin qərarı ilə xitam verilir.

## Maddə 6. Üzvlərin vəzifələri və hüquqları

6.1. Komissiyanın üzvü (sədri, müavini) aşağıdakı vəzifələri yerinə yetirir:

6.1.1. bu Əsasnamənin və Komissiyanın daxili prosedur qaydalarına (reqlamentinə), habelə etik davranış qaydalarına əməl etmək;

6.1.2. Komissiyanın iclaslarında və müzakirələrində iştirak etmək;

6.1.3. Komissiyanın və üzvü olduğu işçi qrupunun iş yükünün bölüşdürülməsində iştirak etmək;

6.1.4. icrası ona həvalə edilmiş tapşırığı (məlumatın və ya sənədin araşdırılması, müqayisəli təhlil aparılması, rəy, təklif, layihə, hesabat, yaxud digər növ sənədin hazırlanması və s.) vicdanla, vaxtlı-vaxtında, düzgün və tam həcmdə yerinə yetirmək;

6.1.5. Komissiyanın digər üzvləri ilə qarşılıqlı əməkdaşlıq etmək, onların fəaliyyətinə maneçilik törətməmək.

6.2. Komissiya üzvünün aşağıdakı hüquqları vardır:

6.2.1. Komissiyanın və onun işçi qruplarının fəaliyyəti barədə məlumat almaq;

6.2.2. Komissiyanın və üzvü olduğu işçi qrupunun daxili prosedur qaydalarına (reqlamentinə), iş planına, iclasının gündəliyinə, habelə iclasda müzakirə edilən məsələlərə dair öz mövqeyini və təkliflərini şifahi, yaxud yazılı şəkildə ifadə etmək;

6.2.3. Komissiya üzvünün vəzifələrinə aid olmayan tapşırıqların icrasından əsaslandırılmış formada imtina etmək;

6.2.4. səsvermədə iştirak etmək, yaxud ayrı-ayrı qərarların (aktların, təqdimatların, hesabatların və s.) qəbulu prosesində bitərəf qalmaq;

6.2.5. Komissiyanın və üzvü olduğu işçi qrupunun qərarı (aktı, rəyi, hesabatı və s.) ilə razılaşmadıqda, həmin məsələyə dair əsaslandırılmış xüsusi rəy vermək;

6.2.6. Komissiyanın katibində saxlanılan sənədlərin surətini ondan tələb etmək.

6.3. Komissiyanın üzvləri öz aralarından Komissiyanın sədrini və müavinini seçir.

6.4. Sədr və müavin 3 (üç) aylıq müddətə rotasiya qaydasında seçilir. Rotasiya könüllülük prinsipinə əsaslanır. Rotasiyanın digər şərtləri Komissiyanın qərarı ilə müəyyən edilir.

6.5. Komissiyanın sədri onun üzvlərə şamil edilən vəzifələrlə yanaşı, aşağıdakı vəzifələri yerinə yetirir:

6.5.1. Komissiyanın iclaslarını daxili prosedur qaydalarına (reqlamentə) uyğun təşkil və idarə etmək;

6.5.2. Komissiyanın iclaslararası dövrlərində işçi qrupların fəaliyyətini əlaqələndirmək;

6.5.3. Himayəçinin (Himayəçilər Şurası üzvünün) tələbi ilə Komissiyada, o cümlədən onun işçi qruplarında baxılan məsələlərin gedişatı və hazırlanan sənədlərin vəziyyəti barədə ona məlumat vermək;

6.5.4. Komissiya adından qəbul edilən qərarları, hazırlanan sənədləri və məktubları imzalamaq;

6.6. Komissiyanın sədri üzvlərə şamil edilən hüquqlarla yanaşı, aşağıdakı səlahiyyətləri həyata keçirir:

6.6.1. Komissiyanı Konfederasiyanın digər orqanları qarşısında təmsil etmək;

6.6.2. Komissiyanın növbədənkənar iclasını çağırmaq;

6.6.3. Komissiyanın işçi qruplarında baxılan məsələlərin gedişatı və hazırlanan sənədlərin vəziyyəti barədə müvafiq işçi qruplarının rəhbərlərindən məlumat almaq.

6.7. Komissiya sədri Komissiyanın işində müvəqqəti iştirak edə bilmədiyi hallarda, Komissiya sədrinin müavini bu Əsasnamənin 6.5-6.6-cı maddələrində göstərilən funksiyaları həyata keçirilir.

## Maddə 7. Komissiyanın iş qaydası

7.1. Komissiya, bu Əsasnamə ilə müəyyən edilmiş funksiyalarını iclaslar təşkil etmək, müzakirələr aparmaq, sənədlər hazırlamaq və qərar qəbul etməklə həyata keçirir.

7.2. Komissiyanın iclasları növbəti və növbədənkənar ola bilər.

7.3. Növbəti iclaslar Konfederasiyanın Rəyasət Heyətinin təsdiq etdiyi ümumi reqlamentin şərtləri çərçivəsində Komissiyanın daxili prosedur qaydalarında (reqlamentində) nəzərdə tutulan dövriliklə keçirilir.

7.4. Növbədənkənar iclas Komissiyanın sədri, istənilən 3 (üç) üzvü, himayəçisi (Himayəçilər Şurasının üzvü), Konfederasiyanın prezidenti, vitse-prezidentləri və ya baş katibi tərəfindən çağırıla bilər. Növbədənkənar iclasın gündəliyi onu çağıran səlahiyyətli şəxs tərəfindən müəyyən edilir.

7.5. Komissiyanın iclasları canlı görüş, yaxud xüsusi proqram tətbiqi vasitəsilə onlayn formatda təşkil oluna bilər.

7.6. Üzvlərinin yarıdan çoxu iştirak etdikdə, Komissiya səlahiyyətlidir.

7.7. Komissiyanın sədri (o, olmadıqda müavini) iclası açır, iclasın təsdiq olunmuş gündəliyini və (yaxud) gündəliyə dair təklifləri elan edir.

7.8. Təkliflər müzakirə olunduqdan sonra iclasın gündəliyinin yekun məzmunu səsvermə yolu ilə təsdiq edilir.

7.9. Komissiya bu Əsasnamənin 2.1.1 - 2.1.6-cı maddələrində sadalanan funksiyaları öz təşəbbüsü ilə həyata keçirir.

7.10. Bu Əsasnamənin 2.1.1 - 2.1.7-ci maddələrində sadalanan funksiyalarla bağlı konkret tapşırıqlar Komissiyaya Konfederasiyanın prezidenti, vitse-prezidentləri və Komissiyanın himayəçisi (Himayəçilər Şurasının üzvü) tərəfindən də həvalə edilə bilər.

7.11. Bu Əsasnamənin 2.1.8-ci maddəsində nəzərdə tutulan sənəd layihələri Komissiyanın icraatına Konfederasiyanın baş katibi və ya müavini tərəfindən verilir.

7.12. Bu Əsasnamənin 2.1.9-cu maddəsində nəzərdə tutulan sorğular Komissiyanın icraatına həmin maddədə göstərilən aidiyyəti vəzifəli şəxslər və struktur vahidlər tərəfindən təqdim edilir.

7.13. Bu Əsasnamənin 7.10 – 7.12-ci maddələrində göstərilən səlahiyyətli orqanlar və vəzifəli şəxslər tərəfindən Komissiyanın icraatına verilən sənədlər, sorğular və tapşırıqlar sonuncunun fəaliyyət istiqamətlərinə aid olmadıqda, Komissiya onları icraata qəbul etməkdən imtina barədə əsaslandırılmış qərar çıxarır.

7.14. İcraata qəbul edilmiş sənədlər, sorğular və tapşırıqlar, o cümlədən gündəliyə və (ya) iş planına daxil edilmiş məsələlər müzakirə edilir, yeni sənədlərin işlənib hazırlanması imkanları qiymətləndirilir, onların icra prinsipləri, prosedurları və müddəti müəyyənləşdirilir.

7.15. Komissiya ayrı-ayrı sənədlər, sorğular və tapşırıqların icrasını müvafiq işçi qruplarına həvalə edir, araşdırmaların çevik, təfərrüatlı və obyektiv aparılması üçün Əsasnamənin 4-cü maddəsində nəzərdə tutulan digər hüquqlarından istifadə edir.

7.16. Komissiya, hazırlanmış sənəd layihəsinin təsdiq edilməsi, onun düzəlişə və ya yenidən işlənib hazırlanmağa qaytarılması, yaxud baxılmamış saxlanılması barədə qərar qəbul edir.

7.17. Komissiyanın qərarları onun iclasında iştirak edən üzvlərinin adi səs çoxluğu ilə qəbul edilir. Səslər bərabər olduqda səsverməyə qoyulan məsələ rədd edilmiş sayılır.

7.18. Komissiya icra etdiyi işlər və onların nəticələri barədə Rəyasət Heyətinə rübdə 1 (bir) dəfə hesabat verir.

## Maddə 8. İşçi qruplar və məşvərətçilər

8.1. Komissiyanın qərarı ilə onun tərkibində daimi və (ya) müvəqqəti (ad-hoc) işçi qrupları yaradılır.

8.2. Daimi işçi qrupları Komissiyanın fəaliyyət sahəsinə aid funksiyaların müəyyən qismini qeyri-müəyyən müddətdə həyata keçirmək məqsədilə yaradılır.

8.3. Müvəqqəti (ad-hoc) işçi qrupları Komissiyanın fəaliyyət sahəsinə aid konkret tapşırığın icrası məqsədilə yaradılır. Tapşırıq icra olunduqdan sonra müvafiq işçi qrup buraxılır.

8.4. İşçi qrupları Komissiyanın üzvlərindən ibarət tərkibdə, sahəvi ixtisaslaşma və könüllülük prinsipləri əsasında yaradılır.

8.5. İşçi qrupların vəzifələri, hüquqları, daxili prosedur qaydaları və iş planlarının müəyyənləşdirilməsi, onlara konkret tapşırıqların verilməsi, hazırladıqları sənəd layihələrinin və hesabatlarının dinlənilməsi və təsdiqi, habelə işçi qruplarına yeni üzvlərin qəbulu, mövcud üzvün işçi qrupundan çıxarılması səlahiyyətləri Komissiya tərəfindən həyata keçirilir.

8.6. Komissiyanın və onun işçi qruplarının fəaliyyətinə mütəxəssislər, ekspertlər və təcrübəli iş adamları məşvərətçi qismində cəlb oluna bilər.

8.7. Məşvərətçilər Konfederasiya prezidentinin sərəncamı ilə, Komissiya üzvlərinin səlahiyyət müddətindən artıq olmayan müddətə təyin edilir. Məşvərətçinin səlahiyyətlərinə onun öz

ərizəsi, yaxud Komissiyanın vəsatəti əsasında Konfederasiya prezidentinin sərəncamı ilə vaxtından əvvəl xitam verilir.

8.8. Məşvərətçi Komissiyanın və ya müvafiq işçi qrupun gündəliyi, habelə baxılan məsələlər və araşdırılan sənədlərlə tanış ola, onlara rəy bildirə və təkliflər verə bilər. Məşvərətçi, qərarların qəbul edilməsində (səsvermədə) iştirak etmək hüququna sahib deyil.

## Maddə 9. Katib

9.1. Konfederasiyanın baş katibinin sərəncamı ilə Konfederasiyanın Direktorluğunun əməkdaşlarından Komissiyaya katib təyin edilir.

9.2. Komissiyanın katibi:

9.2.1. Konfederasiyanın digər orqanları ilə Komissiya arasında əlaqələri və sənəd dövriyyəsini təmin edir;

9.2.2. Komissiyaya ünvanlanan sənədləri qəbul edir və qeydiyyata alır, onların elektron nüsxəsini hazırlayıb 1 (bir) iş günündən gec olmayaraq Komissiya üzvlərinə (sədrinə, müavininə) təqdim edir;

9.2.3. Komissiyanın iclas gündəliyini və gündəliyə dair təklifləri Komissiya üzvlərinə (sədrinə, müavininə) və məşvərətçilərə iclasın keçiriləcəyi tarixdən azı 3 (üç) gün əvvəl elektron formada təqdim edir;

9.2.4. Komissiyanın iclaslarının təşkili ilə bağlı texniki məsələləri həll edir;

9.2.5. Komissiyanın iclaslarını protokollaşdırır və ya onların audio, yaxud video qeydiyyatını təmin edir, protokolları imzalayır və iclas sədrinə təqdim edir;

9.2.6. Komissiya tərəfindən hazırlanmış sənədləri təsdiq olunduğu tarixdən 3 (üç) iş günü müddətində bu Əsasnamənin 7.10 – 7.12-ci maddələrində göstərilən aidiyyəti orqanlar və vəzifəli şəxslərə, Komissiyanın öz təşəbbüsü ilə hazırlanmış sənədləri isə Konfederasiyanın prezidentinə göndərir;

9.2.7. Əsasnamənin 7.13-cü maddəsində göstərilən qərarın nüsxəsini onun təsdiq olunduğu tarixdən 3 (üç) iş günü müddətində Əsasnamənin 7.10 – 7.12-ci maddələrində göstərilən aidiyyəti orqana və ya vəzifəli şəxsə təqdim edir;

9.2.8. Komissiya üzvünün və ya himayəçinin (Himayəçilər Şurası üzvünün) tələbi ilə ona Komissiyaya aid sənədlərin surətini təqdim edir;

9.2.9. kağız daşıyıcıda olan sənədlərin qorunub saxlanması və arxivlənməsini, habelə elektron daşıyıcılarda olan sənədlərin sistemləşdirilməsini təmin edir.

9.3. Komissiya katibinin vəzifələrinə Konfederasiyanın baş katibinin sərəncamı ilə xitam verilir.

## Maddə 10. Himayəçilik

10.1. Komissiyanın fəaliyyətini müşahidə etmək, səmərəliliyini qiymətləndirmək və artırmaq məqsədilə Rəyasət Heyəti öz üzvləri arasından himayəçi (kurator) seçir, yaxud 3 (üç) üzvündən ibarət tərkibdə Himayəçilər Şurası yaradır.

10.2. Himayəçinin (Şura üzvlərinin) səlahiyyət müddəti Komissiya tərkibinin səlahiyyət müddəti ilə məhdudlaşır. Himayəçinin (Şura üzvünün) səlahiyyətlərinə Rəyasət Heyətinin qərarı ilə vaxtından əvvəl xitam verilə bilər.

10.3. Himayəçilər Şurası yaradıldıqda, o, öz sədrini seçə və bu Əsasnaməyə uyğun olan daxili prosedur qaydalarını müəyyənləşdirə bilər. Üzvlərinin yarıdan çoxu iştirak etdikdə, Şura səlahiyyətlidir. Şuranın qərarları onun iclasında iştirak edən üzvlərinin sadə səs çoxluğu ilə qəbul edilir. Bu maddənin müddəaları Şura üzvünün fərdi qaydada həyata keçirə biləcəyi səlahiyyətləri məhdudlaşdırmır.

10.4. Himayəçi (Şura üzvü) Komissiyanın fəaliyyətini müşahidə etmək, Komissiya ilə Rəyasət Heyəti arasında, eləcə də Komissiyanın kənar təşkilatlarla əlaqələrini koordinasiya etmək, Komissiyada baxılan məsələlərin gedişatı və hazırlanan sənədlərin vəziyyəti barədə Komissiya sədrindən (müavinindən) operativ məlumat əldə etmək, Komissiyanın katibində saxlanılan sənədlərin surətini ondan tələb etmək hüquqlarına malikdir.

10.5. Himayəçi (Şura) Komissiyanın fəaliyyəti barədə öz rəy və təkliflərini Rəyasət Heyətinə təqdim edir.

## Maddə 11. Əsasnaməyə əlavə və dəyişikliklər edilməsi

11.1. Bu Əsasnaməyə əlavə və (yaxud) dəyişik edilməsi barədə təşəbbüs hüququ Konfederasiyanın prezidentinə, vitse-prezidentlərinə və Komissiyanın himayəçisinə (Himayəçilər Şurasına) mənsubdur.

11.2. Əsasnaməyə əlavə və dəyişikliklər edilməsi barədə qərar Konfederasiyanın baş katibinin rəyi dinlənildikdən sonra Rəyasət Heyəti tərəfindən qəbul olunur.

11.3. Əlavə və dəyişikliklərin qüvvəyə minməsi tarixi Rəyasət Heyətinin müvafiq qərarında göstərilir. Qüvvəyə minmə tarixi göstərilmədiyi halda, əlavə və (yaxud) dəyişikliklər Rəyasət Heyətinin müvafiq qərarının qəbul edildiyi tarixdən sonrakı ilk iş günündə qüvvəyə minir.